HƏYATIN MƏNASI

Əbülfət Mədətoğlunun poeziyası haqqında fəlsəfi düşüncələr

Hüseynağa QƏNİYEV,
filosof

Ön söz

XX əsrin möhtəşəm filosofu Martin Xaygerrep deyir: "Hər kəs başqasıdır ki, var, heç kim özü ola bilmir". Mən bununla razılaşmıram.

Deyirlər tarix obyektiv faktların subyektiv təfsiridir. Bəs, faktlar haradan yaranıb? Onu da subyekt hazırlayıb. Elə isə faktlar niyə obyektiv olur ki?! Bu səbəbdən Rene Dekart deyib: "Hər şeyi şübhə altına almamalı". Bəs, yerdə nə qalır?! Ona belə cavab verir: "Düşünürəmsə, demək varam". Yerdə qalır insan, onun ağlı, zəkası və düşüncəsi. Bununla da tam razılaşmayanlar tapıldı. "Obyekt subyektdə ola bilməz!" - dedilər. Onlar ayrı-ayrı anlayışlardır.

Beləliklə, XVII əsrdən başlayaraq, fəlsəfənin əsas məsələsi -"Materiya birincidir, ya şüur?!" problemi aktuallığını itirdi, insan, onun həyatının mənası önə keçdi.

Nədir həyatın mənası?!Bu sual filosofları çox düşündürdü. Yeni ideyalar, fəlsəfi fikirlər yarandı və orta əsrlərin dini sxolastik imperativlərini çökdürməyə başladı.

İdeyalar ayrıcında onlardan bir neçəsini nəzərdən keçirək.

MaksŞtirner: Çox da geniş yayılmayan, lakin təfəkkürün ən dərin qatlarına işləyən, hətta Artur Şopenhauer, onun vasitəsilə Fridrix Nitsşeyə güclü təsir göstərən, dünya fəlsəfi irsiniözünəməxsus qavrayan bu nəhəngfilosof dedi: - Məndən yüksəkdə heç nə yoxdur!

Dedilər bu eqoizmdir.

Artur Şopenhauer: O, dünyanı iradə və təsəvvür kimi qələmə aldı. Yerdə qalan hər şeyi inkar etdi. İradə ciddi-cəhd, qüvvə, enerji imkandır, təsəvvür istək, arzu. İmkanla istək-arzunun balansı heç vaxt, heç yerdə,heç kim üçün uyğun gəlməyib və gəlmir. Bu əbədi uçurum insanı xoşbəxtliyə qovuşmağa imkan vermir.

Dedilər bu pessimizm, bədbinlikdir.

Fridrix Nitsşe: Həyatın mənasını, bəşəriyyətin xoşbəxtliyini, insanın, fərdin, individumun, totem və tabulardan, fetişizmdən, yaratdığı və kölesinə çevrilib, səcdə etdiyi süni allahlardan azad olub, özünün öz allahına - fövqəlbəşərə çevirməkdə gördü. Nümunəsini zəmanəsində tapa bilməyib, keçmişə qayıtdı və Zərdüştü nişanverdi: "Zərdüşt belə deyib" dahiyanə əsərini yazdı.

Onu da Hitlerə qoşdular. Üç nəhəng ideyanın, kitin - "xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl" üzərində duran Zərdüştçülük bu damğadan güclə qurtuldu.

Alber Kamyu: - Həyatın mənası, "Sizif əməyi kimi absurd, əzab-əziyyətdir" - dedi. Onun cavabı sualında özünü tapdı: "Həyatın mənası absurddur!".

Jan Pol Sartr: - "Həyatın mənası yaradıcılıqdadır". Dedilər hər şey axır, hər şey dəyişir, yaradıcılıq da köhnəlir, unudulur, itib-batır.

Seren Obyu Kerkorop: Əvvəlincini axırda yazdım. İlahiyyatçı filosof ekzestensal - yaşam fəlsəfəsinin banisidir. Dedi: - İnsan öləndə doğulur, əbədi, haqq dünyasına qovuşur. Həyatın mənasını o - əbədi haqq dünyasında tapdı. Dedilər bu psixoterapiyadır.

Burda mənim yadıma Molla Nəsrəddinin dahiyanə, sadə və dərin fəlsəfi lətifəsi düşür. Oğlu və eşşəyi ilə yol gedən Molla bütün hallarda kütləninqınağı, tənəsi ilə rastlaşaraq, sonda eşşəyi dalına alıb, yol getməli olur. İdeyalar bir-biri ilə yola getmir, dialoqa girir, hər biri gerçəkliyi öz gözü ilə görür və dəyərləndirir.

***

Çoxdan izlədiyim Əbülfət Mədətoğlunun yaradıcılığı haqqında əlimə qələm alanda saysız-hesabsız ştamplaşmış, daşlaşmış bədii ədəbiyyatın nəzəriyyələrinin, fəlsəfi ideyaların yol ayrıcında durub, fikrə getdim. Bu nəzəriyyələrin, ideyaların heç biri əl vermirdi. Bəs, Əbülfətin yaradıcılığına hansı gözlə yanaşım?! Qərara gəldim ki, kreativ şəxsiyyətlərin yaradıcılığına baxışın və təhlilin ən obyektiv yolu onun öz gözüdür. Gəlin, Əbülfətin bədii yaradıcılığını fəlsəfi düşüncə tərzində, onun öz gözü ilə nəzərdən keçirək.

Ağrılı çəkdiyim,
dərdli çəkdiyim
Bu boyda Bakıda
dərddi çəkdiyim,
Mənim azadlıqda
şərti çəkdiyim,
Cəzanın adını
çəkənlər bilər.

Lirika

Lirika nədir? Qədim Yunanıstanda, o cümlədən Qərbdə poeziya nümunələri - sonet, oda, elegiyalar və s. lira musiqi alətinin sədaları altında oxunduğu üçün onlara lirika deyirdilər. Qərbdə poeziya ilə liranın melodiyasının vəhdəti də ecazkar təsir qüvvəsinə çevrilmişdiyi kimi Şərqdə də Əbülfət Mədətoğlunun poeziyası tarla, kamanla, sazla bəhdətdə səslənir. O, tar kimi haray salır, kaman kimi inləyir, saz kimi ruha hopur. O, Qurban Pirimovu, Habil Kamanı, Ədaləti xatırladır. Onun lirikasındakı insanlar da, onların məhəbbət və nifrəti də, təbiəti də, orada ağacların yarpaqlarının xışıltısı, gül-çiçəklərin ətri də təkrarolunmazdır.

Ağacların nəğməsini
yarpaqlar oxuyur,
Yarpaqların nəğməsini
küləklər…
çiçəklər,
ləçəklər…
Oxuyur
Günəşdən öncə,
arılar,
sonra da kəpənəklər…
Günəşsə yuyunur şehdə.
Qələbləri əvvəl
duyğu danışdırır…
sonra da
qələm, kağız.
Ürəklə kağızın arasında
hər kəsdən
deyilməmiş
söz qalır
bir ağız…

***

Dilimizdə obraz surət, şəkil kimi anlaşılır. Əbülfətin yaradıcılığı bundan imtina edir. Onun obrazları, həyatdakı həqiqətlərlə eyniyyət təşkil etmir, onların surəti və ya şəkli deyil, özünün təkrarolunmaz duyğularının, düşüncə, qavrayış tərzinin şeir məhsuludur.

Gülüm,
əllərim dibçək,
saçların
ovcumda açmış çiçək…
yüz il bundan sonra da
tellərinin sayını
soruşan olsa,
əllərim su kimi içəcək!..

və yaxud,

Dərdin
Böyüyü-kiçiyi olmur,
Dərdin ölçü vahidi
Ürəyin tutumudu…
Dərd - dadı damağından,
Ağrısı canından getməyən
Ömrün
Bir turşməzə tumudu.
Baş-başayıq onunla…

***

Allah saysız-hesabsız canlı-cansız varlıqlar yaradır, lakin onların heç biri digərinin tam eynisi deyildir. Hər birini birləşdirən ümumi cəhətlər olduğu kimi, ayıran, fərqləndirən xüsusi cəhətlər də var. VanQoqun "Günəbaxan" rəsmi həm təbii günəbaxandan, həm dəona qədər çəkilən minlərlə günəbaxanlardan xüsusi duruş, görünüş tərzi, rənqləri ilə fərqlidir. O günəbaxan daha çox enerji saçır, işıqlıdır, orijinaldır, təkrarolunmazdır, unudulmazdır. Hətta harda, ilin, günün hansı vaxtında, kim tərəfindən çəkildiyini açıq-aydın söyləyir. Yaradıcılıq, bədii estetik yaradıcı düşüncənin məhsulu budur!

Mən səhəri göy üzündə açmışam
Ulduzları saya-saya baxışla...
Hörüyünə bir bənövşə taxmışam -
Yuxudaydın, oyatmadım... bağışla!

Özüm sanki üzülmüş bir yarpağam
Duman qoymur sənə tərəf, yar, baxam...
Nə əlim var, nə əlində, yar, yaxam -
Seçəcəksən məni hansı naxışla?

Məhəbbətdi ruhum - özəl mənbəyim,
Təbiidi yana-yana sönməyim...
Qadağandı ürəyinə dönməyim -
Dönəcəyəm kirpiyinə yağışla...

***

Deyirlər, "Dünya bir pəncərədir, hər gələn baxıb gedər". Həmin pəncərədən hər kəs öz gözü ilə görür, öz duyğuları ilə qavrayır, gördüyünü paylayır. Rəssam rənglə, musiqiçi səslə, şair poeziya ilə. Orada ümumi cəhətlər nəzərə çarpmır, yalnız xüsusi, məxsusi rənglər, səslər, poetik ifadələr görünür, eşidilir, beyinlərə hopur, gələcəyə, uzunömürlülüyə yol tapır.

Hönkür-hönkür ağlayıb,
Boşaltdım ürəyimi.
Batırdım göz yaşıma
Əl boyda çörəyimi
Kasıb süfrə açmışdım, kasıb…

Və yaxud,

Ucalıq qəmin çəpəri,
Tükənir dizin təpəri…
Günün ən acı xəbəri -
Bu telefona zəng çatmır!

Bu fikirlər Əbülfətin poeziyası ilə tanış olanda ağlıma gəldi.

Metafora

Əbülfət Mədətoğlu poeziyası nəql, vəsf, nifrət, ifşa, çağırış, üsyan etmir, o, imperativ deyil, onda notemika, pafos yoxdur. Sadəcə hiss-həyəcanlarının duyğu ilə qavrayışını poetik dillə ifadə edir. O, formaca adi görünsə də, ideya və məzmunca həyat həqiqətlərini, reallığı ifadə etsə də, deyim tərzi, özünəməxsus obrazlı metafordur. Onun lirikası fəlsəfəsi, fəlsəfəsi lirikasıdır. Təbiətən də axar bulağın şırıltısını, musiqidə ecazkar kamanın iniltisini xatırladır.

Dedim sənin yanında
Heç nə düşmür yadıma.
Səndən ayrılan kimi
Başlayır darıxmağa -
Ürəyim.

Dedim sənin yanında
Söz tapmıram, danışım.
Ayrılanda həsrətlə
İmkan vermir barışım -
Ürəyim.

Dedim bunun sonu nə -
Yolu hara qədərdi?
Bu görüşlər bəhanə,
Yaşadığım kədərdi -
Ürəyim!

Dedim son da əvvəldi,
Dözəcəm sona kimi.
Çatılasa, həsrətindən,
Yanacaq qana kimi -
Ürəyim.

Dedim çaşıb qalmışam,
Bilmirəm, heç nə edim?!
Tay sən mənim özümsən,
Sənsiz mən hara gedim -
Ürəyim?

Dedim mən də dalğınam,
Ay arzum, ay dilayim,
Dənizsən, mən dalğanam
Ayır görüm, sən bizi,
Ürəyim, ay ürəyim!

***

Əbülfət Mədətoğlu hər zaman, hər yerdə özü olmağa çalışır. Şeirlərinin nöqtəsi yoxdur, ideyalar ən mükəmməl həndəsi fiqur kimi dövrə vurub, yeni, daha mükəmməl keyfiyyətdə oxucuya qayıdır, enerjisinə yeni enerji, ruhuna ruh, həyat eşqinə yeni eşq qatır.

Əslində
hər şey sondu.
Və sondan
başlayır əvvəl...
Nəticə -
ilk addımın əksidi.
Hətta
belə də
demək olar -
məqsədin çəkisidi
sondan əvvələ
uzanan yol...
sanki seyr edirsən,
bircə unudursan ki,
hər zaman
özündən özünə
gözüyumulu
bütün
istiqamətlərdən
yol gedirsən.

Və yaxud,

Hərdən
üzüquylu düşüb
ölümümü
ağlamaq istəyirəm -
nə vaxt gələcəyini
bilməsəm də...
Hərdən
əllərimi uzadıb
tanrının
gözlərini
bağlamaq istəyirəm -
mənim necə
ağladığımı
gördüyünü bilsəm də...

İnsan və robot

Poeziya irrosional qavrayışa rasional dərketmədən daha çox önəm verir. Rasional təfəkkür dəqiq, quru, sxematik, elm, ağıl yoluna gedib, insanı robota, irrasional qavrayış isə insanın duyğu üzvlərini itiləyir, fantaziyasını qanadlandırır, hiss və həyəcanlarını coşdurur, həyat eşqini yüksəldir, hətta robot hazırlayan alimlərin robotlaşmasına əngəl törədir. Metafora, yaradıcı fantaziya, rasional təfəkkürlə irrasional qavrayışın, ağılla hiss və duyğuların balansını tənzimləyir.

Bu qədər
canım
sıxılmazdı əvvəllər -
bilməzdim ki,
nə canım var,
nə dərdim...
İndi
canım
sıxıldıqca
düşünürəm ki,
canım olmayan yerə
dərdimi
tərəddüdsüz
götürüb gedərdim -
bir az
rahatlanmaq üçün...

Və yaxud,

Öldür məni sevə-sevvə,
Göz yaşın gözümə yağsın.
Öldür, amma gülə-gülə
Gözlərin gözümə baxsın.

Dünyanın odun ələyim,
Canımı oda bələyim,
Özü od olan mələyim,
Bir dönüb üzümə baxsın...

Duyğu qalareyası

Əbülfət Mədətoğlunun poeziyası təbliğatçı, təşviqatçı, təşkilatçı deyil, təbiətin qanunları kimi təbii, sakit, sadə, təmkinli və bitərəfdir; öz strategiyası və traektoriyası var. Bunu bilməzdən və öyrənməzdən ondan faydalanmaq çətindir. O, təbiətin və cəmiyyətin gözəlliklərini, ağrı-acılarını abstraksiya edərək ümumiləşdirib standartlaşdırmır, hamı üçün şablon, ştamp, trafaret, matrisa hazırlamır. O, duyğuların, hiss-həyəcanların açıq qalareyasıdır. Hər kəs onları öz gözü ilə görür və təbii duyğularının gücü müqabilində payını götürür.

Qaçdım,
qurtara bilmədim
dərdin əlindən.
Əvvəl atəyimdən tutdu,
sonra ürəyimdən.
Yavaş-yavaş
ruhumu oxşayaraq
şirin vədlər -
səpələdi dilindən.
Mən də
üzüyumşaq -
aldana-aldana
bir də gördüm ki,
əlimdən çıxıb ürək...

Və yaxud,

Metro girişində
bir parça
karton üstündə
əyləşib
qucağında
əl boyda
körpəsi olan
bir qadın
çörək pulu dilənir...
Görəsən,
Şirin öpüşlərin,
gizli görüşlərin
yaşayanda dadın -
heç ağlına
gətirə bilirdimi,
doğacağı uşağın
indiki həyatın,
bugün
metro girişində
Allahın adıyla
dilənən qadın?!.

Vəhdət

Kainatda hər şey qarşılıqlı əlaqədə, vəhdətdədir. Dahi filosof və loğman Əli ibn Sina son nəfəsində bu sözləri təkrar etmişdi: Vəhdət! Vəhdət! Vəhdət!

Orta əsrlərdə, dinlərin hökmran olduğu dövrdə "proqres" sözü, anlayışı yox idi. Hər şey mütləq ideyanın iradəsindən asılı idi. "Ol" deyəndə olur, "öl" deyəndə ölürdü. Vəhdət isə yekcinsliyi qəbul etmir, o, xüsusi, təbii, zəruri, qüdrətli strategiya və taktika əsasında birləşmənin nəticəsidir. O, tərkibdir. Hər şey, bütün materiyalar, hətta millətlərin qan qrupu - DNT-lərində tərkibdir. Heç kim düz xətlə bir tayfanın və qəbiləinin qan qohumluğundan yaranmayıb.

***

Eksperimental fizikanın banisiQalileo Galiley (1564-1642) yeri-göyü tədqiq edib, bu fikrə gəldi: hər şey əbədi hərəkətdədir, səbəb və nəticə əlaqəsinin məhsuludur. Əli ibn Sinanın "Vəhdət"sözü elmi təsdiqini tapdı. Bəs səbəb?

***

Alman klassik idealist fəlsəfəsinin nəhəng yaradıcılarından biri Georq Vilhelm Fridrix Hegel (1770-1831) vəhdəti əksliklərin mübarizəsində gördü. Beləliklə, əksliklərin mübarizəsi və bəhdəti qanunu yarandı.

Bu, ümumdünya akademik, milli universal qanuna hamımız inanmışıq. O, təbiidir, zəruridir, vacibdir, geriyə dönməzdir.

***

Əbülfət Mədətoğlunun çox maraqlı həyatı var. O, Azərbaycanların əzəli-əbədi tarixi torpağı - Qarabağın Xocavənd rayonunun məşhur Tuğ kəndində doğulub. Milli əksliyin əsrlərlə tüğyan etdiyi doğma ata-baba torpağında. Şair bu əksliklərin mübarizəsinə təbii qüvvə kimi baxır, axırda onun haqq-ədalətin rəmzi kimi vəhdətdə birləşməsinə şübhə etməməyə çalışırdı.

Kür, Araz, Ararat, gözəldir bu həyat,
Qardaş olub Hayastan - Azərbacan.
- sözləri ilə cilalanmış mahnını eşidəndə duruxub fikrə gedirdi. "Kəndim" şeirində həmin hisslərini ifadə etdi. Bu, onun ilk şeirlərindən biri idi.

Əlim daşına çatmır,
Daşın öpə bilmirəm.
Heç nə başımı qatmır.
Gözümə təpə bilmirəm,
Nə vaxtdır səni, kəndim.

Bu qışda "soyuğa" bax,
Əlim, üzüm üşümür.
Qar yağır, qardan da ağ
Xəyal durub, düşürmür -
Atından məni, kəndim.

İçimin göynərtisi
Soyadıma bəs edər.
Bu dərdin göynərtisi
Nəsillərə dərs verər
Dumanlı-çənli kəndim.

Bu öc düşmənə qalmaz
(Mənimtək oğul olmaz!)
Son kərə gülməmişəm.
Qoruya bilməmişəm
Ölüncə səni, kəndim.

Və yaxud,

Kirsin dizi üstə qoyub başını,
Uyuyur, dünyadan bixəbər kimi.
Gözümü açandan, dağlar kəndimin
Qoruyur yuxusun bir sipər kimi.

Öz qara donunu geyər buludlar,
Çilər göz yaşını yola, irizə.
Yaqin toz olmasın deyər buludlar,
Belə kövrəldiyin verməz büruzə.

Mürgülər dağ kəndim - mənim Tuğ kəndim,
Amma ki, yuxusu quş yuxusudur.
Şəhərin havası dəyişdi qəfil -
Yaqin gələni var - kənd qoxusudur.

***

İllər beləcə keçir, Əbülfətin həyatının ən dəyərli anları ötüb-gedirdi. O, hərdənbir tarixi xatırlayıb, kəndinin taleyi haqda düşünürdü. Kəndinin yarısında azərbaycanlılar, digər hissəsində ermənilər yaşayırdılar. Bu iki əksliyin zaman-zaman təbii qüvvələrdən yan keçib, iyrənc hal alacağını, vəhdətdə birləşməyəcəyini ağlına belə gətirə bilmirdi. Cəfər Cabbarlının əsərindəki Allahverdi ilə İmamverdinin üz-üzə durduğunu, hərdənbir barışdığını düşünüb qəti fikrə gələ bilmirdi. Arada güllə səsi gəlsə də ermənin səsinə inanıb, təskinlik tapırdı: "Atan kazaklardı".

"Yersiz gəldi, yerli qaç", "Gəmidə oturub gəmiçi ilə dava eləmək" kimi xalq məsəlini arabir xatırlasa da, əksliklərin mübarizəsinin mütləq vəhdətlə nəticələnəcəyi kimi təbii qanunun da gücünə güvənirdi. Buna baxmayaraq o güllənin kazaklar tərəfindən atıldığına heç vaxt qəti inana bilmirdi.

Ola bilsin ki, bu da Sovet təbliğatının acı nəticəsi idi. O nəticə də erməninin iç üzünün açılmasını gecikdirirdi. Nəhayət, pərdələr qaldırıldı və öncə söylədiklərim öz təsdiqini tapdı: yersiz gəldi, yerli qaçdı. Bu da şairin poeziyasında yeni səhifə açrı.

Mən səninçün heç vaxtı
Belə darıxmamışdım.
Adımı, soyadımı
Belə karıxmamışdım -
Doğulduğum əsir yurd...

Sən mənimçün adicə
Çəmən idin, bağ idin.
Meşəli, buz bulaqlı,
Şələləli dağ idin -
Doğulduğum əsir yurd.

İndi həsrət çəkdikcə
Qınayıram özümü.
Sənə qovuşmaq üçün
Qurban dedim gözümü -
Doğulduğum əsir yurd.

Yaxud,

...Bir ev qoyub gəlmişəm
Açarları cibimdə.
Açarla oynayıram
Çadırların dibində.

***

Əbülfətin həyatının anları bir-birini əvəz edirdi. Ötən əsrin 80-ci illərində onu illər boyu düşündürüb, rahat buraxmayan bir sıra müəmmalar tam çılpaqlığı ilə üzə çıxdı. Atan kazaklar deyilmiş, ermənilər və onların naxələf xisləti, nişangah kəndin azərbaycanlılar yaşayan hissəsi, yandırılıb külə döndərilən əksliklərin təbii, qüdrətli nəticəsi - vəhdət idi. Əbülfət Mədətoğlu yanan kəndini, ata-babasının yurdunun, evinin yandığını gözləri ilə gördü.

Yandı evim-eşiyim,
Yandı divarım, daşım...
İsit, qoyma üşüyüm,
İsit məni göz yaşım...

Və yaxud,

Bir qış nağılıdı bu qış gecəsi,
Şaxta da, sazaq da köhnə tanışım...
Təkcə evim yoxdu, balalarımı
Toplayıb başıma, nağıl danışım...

Əbülfət Mədətoğlunun özünün dediyinə görə, həyatının 33 anını xatırlayır. Lakin onların hamısını hələ ki, qələmə almayıb. Kim bilir, o anlara həyat daha neçəsini əlavə edəcək. Şair əksliklərin daha neçə mübarizəsinin şahidi və iştirakçısı olacaq, daha neçə vəhdətin təntənəsini və qələbəsini görəcək. Hələ ki, poeziyasının ən maraqlı məhsulları ilə inamla addımlayır, gedir.

Bəs o, indi haradadır, hara gedir?

Aramsız
güllə yağışı
bələyir torpağı
dəlib keçir
daşı,
otu
ağacı
yarpağı...
Bir igid
sol əliylə
sıxıb ürəyini
dizi üstə
qana boyanıb
barmağı -
qvcu qan dolu...
Sağ əliylə
tutub bayrağı
gücələ dayanıb
baxır,
baxır
və bağırır: -
İrəli, qardaşlar, görünür
Şuşanın yolu!!!

***

Hər dəfə bu sualı özümə verəndə xəyalımda sürətlə şütüyən bir çapar canlanır. Qatardan irəlidə saysız-hesabsız insanlar inadkarlıqla onu istədikləri səmtə yönəltməyə çalışır. Bacarmır, nəməlum tərəfə yönəlib, şikəst, çarəsiz halda qatarın ardınca söyüş söyməklə, qatardakıları təhqir etməklə, qarğımaqla, çığır-bağır salmaqla yalnız və yalnız dodaqlarının ətrafındakı havanı azacıq tərpətməyə nail olurlar.

Qatarın arxasında da böyük bir dəstə var. Onlar tənbəl-tənbəl hərəkət edir, hamı axtarır, yıxılıb-qalxır, yolda qalır, qatarı gözdən itirir, sonra özləri üçün dua etməklə, kimlərəsə nəzir-niyaz boyun olmaqla təsəlli tapırlar.

Onlar - qatarın qabağında və arxasındakılar kimlərdirlər? Birincilər özlərindən müştəbeh radikal, çılğın, xoleriklər, vsevodlar, "Çingizxanlar", "Napoleonlar"dır. Onlar hətta qatarın zaman və məkanın qurduğu relslərdən kənara çıxarılmasının mümkünsüzlüyündən belə xəbərsizdirlər.

İkincilər maariflənməmiş məzlum kütlədir, hamı axtarır.

Bəs, qatardakılar kimlərdir? Burda mən Martin Haydeqqerlə razılaşmıram. Orada fitri istedadları ilə həyatda "özü olmağı bacaranlar"dır. Əksliklərin - yeniliklə köhnəliyin debatının qaliblərı, işıqlı vəhdətin müəlliflərıdirlər; zaman və məkan ilə ittifaqda böyük gələcəyə doğru gedirlər.

Əbülfət Mədətoğlunu öz yaradıcılığı ilə birgə həmin qatarın içərisində görürəm.